# Yarımçıq qalmış ömür



Qısa bir ömür yaşadı o. Lakin mənalı və xatirələrdə unudulmaz, xoş izlər buraxan bir ömür. Və ömür boyu da gözəlliyi qorumağa, qiymətləndirməyə çalışdı.

Rəssam ruhlu doğulmuşdu Azər Ələkbərov. Fərqli baxışları, fərqli duyumları ilə çoxlarından fərqlənirdi. Daxilindəki bu qeyri-adi hisslər əlindən tutub onu bəlli olmayan bir aləmə aparırdı. Beləcə, ürəyinin səsinə, qəlbinin döyüntüsünə qulaq verib əsrarəngiz aləmə üz tutdu. Burada gördüklərini, görmək istədiklərini ağ vərəqə köçürməyə başladı və beləliklə də bir-birindən fərqli portretlər yarandı.

Gördüklərini kətan üzərində əks etdirmək bacarığı ona tanrı vergisi idi. Lakin doğulub boya-başa çatdığı qədim Naxçıvan torpağının əzəmətli qayaları, yaşıl ormanları, laləli dağları — bir sözlə, sirli-sehirli təbiətinin min bir rəngə çalan əsrarəngiz mənzərələri hələ uşaqlıqdan Azəri məftun etmişdi. Elə incəsənətə, rəssamlığa marağı da burdan qaynaqlanırdı.

O, həm də yaxşı oxuyur, bir neçə musiqi alətində çalırdı. Məktəb tədbirlərində çıxışlar edir, gözəl şeirlər söyləyirdi, idmanla məşğul olurdu. Lakin rəssamlığa olan sonsuz məhəbbəti, bu sənətə vurğunluğu onu yaşıdlarından fərqləndirən digər üstün keyfiyyətlərini kölgədə qoydu və orta məktəbi bitirdikdən sonra 1973-cü ildə Ə.Əzimzadə adına Rəssamlıq Məktəbinə daxil oldu.

Oranı əla qiymətlərlə başa vurduqdan sonra təhsilini Xarkov Rəssamlıq Akademiyasında davam etdirdi. Akademiyanın dəzgah və kitab qrafikası fakültəsini qırmızı diplomla bitirdikdən sonra Azər Ələkbərov vətənə döndü və yenicə yaranmış "Yazıçı" nəşriyyatında əmək fəaliyyətinə başladı. O vaxtı görkəmli naşir, professional poliqrafçı Əjdər Xanbabayevin min bir əzabla, böyük həvəs və gələcəyinə tükənməz inamla yaratdığı "Yazıçı" nəşriyyatı fəaliyyətinin ən məhsuldar dövrünü yaşayırdı. 40 cildlik "Xalq ədəbiyyatı", 100 cildlik "Dünya ədəbiyyatı kitabxanası" silsiləsindən kitablar burda nəşr olunur və nəşriyyat iki ildən bir bu kitabları Moskvada keçirilən Beynəlxalq Kitab Yarmarkasında nümayiş etdirir, uğur qazanırdı.

Azər nəşriyyatın məhz bu çağında gəlmişdi və özü ilə yeni ab-hava gətirmişdi. Təkcə zahiri görkəmi ilə yox, həm də səmimiyyəti ilə, insanpərvərliyi, ünsiyyət qurmaq bacarığı ilə, ağlı, qabiliyyəti, yüksək zövqü və kitablara verdiyi tərtibatı ilə başqalarından seçilirdi. Onun Andersenin "Düyməcik", "Su pərisi" nağıllarına, Hofmanın "Oyuncaq", Rasputinin "Yay", Haufun "Yalançı şahzadə" haqqında nağıl əsərlərinə çəkdiyi qrafik illüstrasiyalara biganə qalmaq mümkün deyil.

Mütaliəni çox sevən, həm klassik, həm də müasir Azərbaycan ədəbiyyatına dərindən bələd olan rəssam çəkdiyi hər bir illüstrasiyanı əsərin məzmunu ilə uzlaşdırır, vəhdət təşkil etməsinə nail olur, ən cüzi bir çalarda əsərin məğzini tamaşaçıya çatdıra bilirdi. Çəkdiyi illüstrasiyalarla əsəri daha da oxunaqlı etməyi, oxucuda maraq oyatmağı bacarırdı.

Məşhur fransız rəssamı Delakrua deyirdi: "İstər mənzərə, qrafika, istərsə də heykəltəraşlıq olsun, hər bir incəsənət əsərinin ilk dəyəri gözləri sevindirməsidir". Bu sözləri bütünlükdə rəssam-qrafik Azər Ələkbərovun yaradıcılığına aid etmək olar.

Səməd Vurğunun, Nəriman Həsənzadənin şeirlər kitabı, Fikrət Qocanın, Ramiz Duyğunun əsərləri, Çingiz Abdullayevin "Müqəddəs olmaq arzusu", Sabir Rüstəmxanlının "Goy tanrı", Elmira Axundovanın "Yaşamaq anı", "Şüşə saray" (siyasi detektiv), "Bu bizik" kitablarına verdiyi tərtibat, çəkdiyi illüstrasiyalar öz işinin ustası olan rəssamın yüksək professionallıqla, böyük ustalıqla yaratdığı əsərlərdir.



Yüksək ustalıq, fərdi yaradıcılıq üslubu, özəl dəst-xətti ilə seçilən rəssam əsərlərində öz daxili aləmini, düşüncələrini, həyəcanını əks etdirəcək əsərləri ilə bərabər yaşamağa nail olmuşdur.

Azər Ələkbərov işgüzarlığı, inadkarlığı, zəhmətsevərliyi ilə sənət aləmində öz yolunu müəyyənləşdirən rəssamlarımızdan idi. Sənətinə hədsiz dərəcədə bağlı olan rəssam təkcə rəsm əsərləri yaratmır, eyni zamanda sevib-seçdiyi sənətin sirlərini öyrənir və öyrədirdi.

Azər Ələkbərov Azərbaycan Dövlət İncəsənət Akademiyasının qrafika fakültəsində və Respublika İncəsənət Gimnaziyasında işləməklə yanaşı, "Gənclik", "Nurlar", "Yurd", "Əbilov", "Zeynalov və qardaşları" nəşriyyatları, "Qanun", "Gənclik", "Ulduz" jurnalları ilə də əməkdaşlıq edirdi. Həmin dövrdə onun "Mənim Abşeronum", "Doğma ellər", "Naxçıvan", "Xatirələr" kimi rəngli novella, nağıl, esse, detektiv və şeir kitablarına çəkdiyi çoxsaylı illüstrasiyaları dərc olunmuşdu.

Nəhayətsiz rənglər dünyasında gözəllik duyğularını sarıldığı fırçası ilə ifadə edən Azər Ələkbərov gördüklərindən heyrətlənən, çəkdikləri ilə heyrətləndirə bilən rəssam idi. O, sadəcə, maraq xətrinə deyil, yaratmaq və yaratdığına yaşamaq vəsiqəsi verə bilmək həvəsi ilə yaşayırdı. Rəssamın əsərləri təkcə respublikada deyil, yaxın və uzaq xaricdə də sərgilənir və hər yerdə özünün tamaşaçısını tapırdı.

2003-cü ildə Beynəlxalq Ekslibris sərgisində nümayiş etdirilən "Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusuna həsr edilmiş əsəri rəssamın yaradıcılığında xüsusi yer tutur. Bundan başqa, "General Arif Heydərov" (2006), Rafiq Əliyevin "İslam", "Heydər Əliyev və Azərbaycan ordusu" (2002), "Xocalı genosidi" (2006), "Azərbaycan Milli Elmlər Akademiyası-60" (2005), Sara xanım Aşurbəylinin "Şirvanşahlar dövləti" və "Bakı şəhərinin tarixi" kitablarının tərtibatı da Azərin yuxusuz gecələrinin sayəsində arayaərsəyə gəlmişdi.

Yaşasaydı 59 yaşını qeyd edəcəkdi və kim bilir, nələr yaradacaqdı Azər. Lakin Tanrının yazdığı ömür payı 50 yaşında tamamlandı...

Bu son, yaxınlarının, onu tanıyanların ürəyində sonsuz bir qubara döndü. Lakin onlar bu yoxluğu bir təsəlli ilə ovundururlar. Yarımçıq qalmış ömrünü və nakam arzularını anası Şəfiqə xanımın adını yaşadan qızı ilə. O da atası kimi olmaq istəyir. Həm sənətdə, həm həyatda. Qoy Tanrı Azərin yarımçıq qalmış arzularını Şəfiqə ilə yaşatsın.

Azər Ələkbərov bir xatirə tək qalacaq yaddaşlarda, yaşayacaq, anılacaq. Tərtibat verdiyi illüstrasiyalar, çəkdiyi kitablar əldən-ələ gəzdikcə, sənətə dəyər verən insanlar yaşadıqca.

**Könül ƏZİMOVA,**
**kulturoloq-rəssam.**